# Səyyar qəbullar

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu





Tikanlı kəndi.



Mamaylı kəndi.



Uludaş kəndi.



Dizaxlı kəndi.

missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin sentyabr ayında səyyar qəbullar Tikanlı, Mamaylı, Uludaş, Dizaxlı kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**"Qəbələ".**
**Fotolar S. Umuyevindir.**

# "Alternativ Enerji Mənbələrindən İstifadənin Pilot layihəsi"nin Təqdimat tədbiri

Qəbələ şəhərində yerləşən Garden Oteldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi "Yaşıl Enerji" siyasətinə uyğun olaraq Bərpa olunan Enerji Mənbələrindən səmərəli istifadə edilməsi məqsədilə, "SAVALAN - ASPİ Winery" MMC-nin Qəbələ rayonunun Savalan kəndində yerləşən şərab zavodunda ümumilikdə gücü 450 kvt olan 3 ədəd Günəş Elektrik Stansiyasının tikintisinin başa çatması ilə əlaqədar təqdimat mərasimi keçirilib. Tədbiri giriş sözü ilə açan "SAVALAN - ASPİ Winery" MMC-nin baş direktoru Arif Rəhimov öncə bütün tədbir iştirakçılarını salamlayaraq bu gün Qəbələdə istifadəyə verilən günəş elektrik stansiyalarının bərpa olunan enerjinin inkişafında böyük əhəmiyyət kəsb etdiyini və bu layihənin tək Azərbaycan deyil bütün dünyaya səs salacağını diqqətə çatdırmışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək rayonun inkişaf perspektivlərini nəzərə çatdırmış, istifadəyə verilən Günəş Elektrik Stansiyasının ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinə və cari ilin noyabr ayında ölkəmizdə keçiriləcək "COP-29"-a Qəbələnin böyük töhvəsi olduğunu qeyd edərək, layihənin həyata keçirilməsində zəhməti olan hər kəsə rayon ictimaiyyəti adından dərin minnətdarlığını bildirmişdir. Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev çıxışında Günəş Elektrik Stansiyasının gücü və əhəmiyyətindən danışmış, Azərbaycanda uğurla aparılan "yaşıl" enerji siyasətinin artıq sənaye müəssisələri və hətta fərdi evlərdə də tətbiq edilməyə başlanıldığını qeyd etmişdir. "SEES" MMC şirkətinin baş direktoru Vüqar Şahmuradov isə çıxışında böyük günəş elektrik stansiyalarından fərqli olaraq paylanmış şəkildə qurulan kiçik stansiyaların yerli transformator məntəqələri vasitəsilə paylanıldığını və paylayıcı şəbəkədən ötürüləcək gücləri qismən əvəzlədiyini diqqətə çatdıraraq, gələcəkdə bu tip qurulan kiçik stansiyaların əlavə qazanc mənbəyi kimi işləyəcəyini bildirmişdir. Sonda Qəbələ rayonu Savalan kəndi ərazisində Bərpa Olunan Enerji Mənbələrindən səmərəli istifadə məqsədilə inşa edilmiş, gücü 450 kvt olan Günəş Elektrik Stansiyasına və Günəş Panellərinə baxış keçirilmişdir.



# 20 sentyabr - "Əsrin müqaviləsi"ndən dövlət suverenliyinə aparan yol

Müasir Azərbaycan tarixində sentyabr ayı çox əlamətdar günlərlə yadda qalmışdır. İlk olaraq Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 8 ölkənin və 13 neft şirkətinin birlikdə imzaladığı "Əsrin Müqaviləsi" Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun birgə işlənməsini nəzərdə tuturdu.1994-cü ilin Sentyabrın 20-də Azərbaycanda təkcə neft sahəsinin deyil, bütövlükdə iqtisadi dirçəlişin təməlini qoyan ilk məqamüqavilə - "Əsrin Müqaviləsi" bağlandı. Heydər Əliyevin tarixi uzaqgörənliyinin və cəsarətinin nəticəsi olan saziş Azərbaycanın milli neft strategiyasının başlanğıcı olmaqla yanaşı, Xəzərin milli sektorlara bölgüsü ilə bağlı ölkəmizin prinsipial mövqeyini nümayiş etdirdi. 1996-cı ildə əhəmiyyətinə görə ikinci böyük enerji müqaviləsi "Şahdəniz" müqaviləsi imzalandı. 1996-cı ilin dekabrında artıq ATƏT-in Lissabon sammitində Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini zəruri sayan qətnamə qəbul edildi. 1997-ci ildə Azərbaycanda genişmiqyaslı iqtisadi inkişaf başlandı. Özəlləşdirmə və aqrar islahatlara start verildi. Kəndli torpağın sahibinə çevrildi, illərlə qapısı bağlı olan sənaye müəssisələrinə sərmayə işığı yandırıldı.

Bu müqavilə həm qoyulan sərmayə , həm də karbohidrogen ehtiyatlarının həcminə görə dünyada bağlanan ən iri müqavilələrdən biri idi . Bunun nəticəsində respublikanın neft-qaz sənayesinə və ümumilikdə ölkə iqtisadiyyatına qoyulan sərmayələrin həcmi kəskin surətdə artdı, əhalinin və sənayenin təbii qaza olan tələbatı ödənildi, magistral neft və qaz kəmərlərinin genişmiqyaslı tikintisinin həyata keçirilməsi sayəsində Azərbaycan neftinin və qazının dünya bazarlarına etibarlı çıxışı təmin edildi. 1998-ci ilin aprelində "Qərb kəməri" Bakı-Supsa işə düşdü. 1999-cu ilin noyabrında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi barədə böyük saziş imzalandı. 2000-ci ilin iyun ayında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin məqsədyönlü xarici siyasəti artıq öz bəhrəsini verdi - Azərbaycan Avropa Şurasına rəsmi dəvət aldı. 25 yanvar 2001-ci ildə Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü qəbul edildi. 2002-ci ilin sentyabrında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin təməlatma mərasimi keçirildi. 2006-cı ildə Bakı-Tibilisi-Ceyhan neft kəməri, 2007-ci ildə Bakı-Tibilisi-Ərzrum qaz kəməri istifadəyə verildi. 2017-ci ilin sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Bakıda " Yenu əsrin müqaviləsi" - Xəzər dənizinin Azərbaycan sektorunda Azəri-Çıraq-Günəşli yataqlar blokunun və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsini nəzərdə tutan və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması baş tutmuşdur. Yeni sazişlə Azəri-Çıraq-Günəşli neft yatağının işlənməsi 2050-ci ilə qədər uzadılmış, SOCA-Rın iştirak payı 11,65 faizdən 25 faizə qaldırılmış, Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil etmişdir.

"Əsrin müqaviləsi"nin Azərbaycan üçün sosial-iqtisadi əhəmiyyəti kimi siyasi əhəmiyyəti də şox böyük olmuşdur. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, regionda və dünya dövlətləri sırasında lider dövləte çevrilməsində "Əsrin müqaviləsi"-nin müstəsna rolu vardır. Əldə olunan iqtisadi dirçəliş sayəsində başqa sahələrdə olduğu kimi ordu quruculuğu istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilmiş və qüdrətli Azərbaycan Ordusu formalaşdırılmışdır. Bunun məntiqi nəticəsi olaraq 2016-cı ilin Aprel döyüşləri zamanı möhtəşəm və zəruri qələbə qazanıldı. 2020-ci ilin sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Müzəffər Azərbaycan Ordusu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğradaraq, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. 2023-cü ilin 19 sentyabrında Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanılmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir.

2024-cü il sentyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev "20 sentyabr-Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü " kimi qeyd olunması barədə Sərəncam imzalamışdır.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin hələ 30 il əvvəl "Əsrin Müqaviləsi" barədə dedikləri artıq reallığa çevrilmişdir: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firəvan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır."

**Araz AĞAYEV,**
**"Qəbələ"nin ştatdankənar müxbiri.**